# Dosta fəxarət, düşmənə xəcalət...

## Hərbi Qənimətlər Parkının açılışından 2 il ötür

44 günlük Vətən müharibəsi xalqımıza təkcə möhtəşəm Zəfəri bəxş etmədi. Qələbəyə doğru irəlilədiyimiz 44 günün hər biri, həm də müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan Ordusunun, dövlətinin gücünü, qüdrətini, Ermənistan tərəfinin isə acı məğlubiyyətini açıq şəkildə bütün dünyaya nümayiş etdirən Vətən müharibəsindən sonra da ölkəmiz günü-gündən inkişaf edir, hər gün yeni uğurlara, nailiyyətlərə imza atmağa davam edir. Müharibənin başa çatmasından cəmi 1 il sonra açılışına şahidlik etdiyimiz Hərbi Qənimətlər Parkının yaranması günü də əlamətdar bir tarixdir. Yeni Bulvarda yerləşən Hərbi Qənimətlər Parkının təntənəli açılış mərasiminin keçirilməsindən artıq 2 il ötür.

Hələ Qələbəmizin rəsmiləşməsindən bir gün sonra - noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu demişdi. Bundan sonra isə dövlət başçımızın təşəbbüsü ilə açıq səma altında nadir park - Hərbi Qənimətlər Parkı salındı.

Parkdakı qənimətlər arasında ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlarla yanaşı, Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarımızda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də yer alır.

Nicat Dilqəmli




Nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir. Düşmənin 150-dək ağır texnikası, “T-72” tankları, piyadaların döyüş maşınları, 2S1 “Qvozdika” özüyeriyən artilleriya qurğusu, “Osa” zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.



Prezident İlham Əliyevin də açılış mərasimində bildirdiyi kimi, Hərbi Qənimətlər Parkında nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir: “Bu Hərbi Qənimətlər Parkının açılışını bu gün etdim. Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 “S-300” zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.

Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər”.

Ümumiyyətlə, Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Yeni Azərbaycan.- 2023.- 12 aprel.- S.8.